# QƏDİM AZƏRBAYCAN ƏRAZİSİNDƏ TUNC DÖVRÜNÜN MAYKOP MƏDƏNİYYƏTİ

**ASLANOV HƏMİD PİRİ OĞLU, QULİYEVA QÜLNARƏ ƏVƏZ QIZI, CƏFƏROVA EMİLİYA NİZAMİ QIZI**

*(ADNSU, "Faydalı qazıntı yataqlarının geologiyası və işlənməsi" kafedrası)*

Tunc, mis, qalay, alüminium, berillium və digər kimyəvi elementlərlə ərintisidir. Tuncda sink ya tamamilə olmur, ya da onda əsas legirləyici element kimi işlədilir. Misin sinklə ərintisinə bürünc deyilir. Qalay (əsas legirləyici element qalay olan) və qalaysız (xüsusi) tunclar var. Qalaysız tunclar ikili (alüminiumlu, beriliumlu, kadmiumlu və s.) çox komponentli olur.

Tunclar deformasiya edilən və ya tökmə tunclara ayrılırlar. Yüksək antikorroziya və antifrik sion xassələri, plastikliyi, möhkəmliyinin çox olması və bərkliyi ilə seçilirlər. Qalayı tunclardan buxar-su armaturu, podşibnik (yataq), oymaqbədii məmulat və s., qalaysız tunclardan isə kimyəvi aktiv mühitdə, yüksək temperaturda və s. şəraitdə işlədilən məmulatlar hazırlanır. Tunc dövrü bəşəriyyətin inkişafında mədəni-tarixi dövr hesab edilir. Enoilitdən sonrakı mərhələ hesab edilir. Tuncun alınması və ondan əmək alətləri istehsalında əsas material kimi işlənilməsi ilə səciyyələnir.

Tunc dövründə misə nisbətən üstün xüsusiyyətləri olan tuncun istehsalının kəşfi təkmilləşdirilmiş, daha mükəmməl əmək alətlərinin meydana gəlməsinə zəmin yaranmışdır ki, bu da oturaq əkinçi maldar tayfalarının mədəni-tarixi inkişafında əhəmiyyətli rol oynamışdır. Tunc istehsalını mənimsəməklə ibtidai insanlar ilk dəfə təbiətdə təsadüf olunmayan yüksək keyfiyyətli yeni bir metal yaratmış, qədim metallurgiyanın əsasını qoymuşlar. Mis ilə qalay və ya başqa müəyyən metalın süni ərintisindən tunc yaranır. Misdən fərqli olaraq tuncun əridilməsi üçün 7000$^{o}$ C kifayət edir.

Mövcud şəraitdə misin əridilməsi və ondan müxtəlif alət, silah və bəzək nümunələrinin hazırlanması misə nisbətən xeyli asan başa gəlir.

Ən qədim tunc alətlər, İran, Azərbaycan və Mesopotamiyanın e.ə.4-cü minilliyə aid abidələrindən tapılmışdır. Tunc əşyalar Misirdə e.ə. 4-cü minilliyin sonu, Hindistanda 3-cü minilliyin sonu, Çində e.ə. 2-ci minilliyin ortaları, Avropada isə e.ə. 2-ci minillikdə yayılmışdır. Amerika qitəsində tunc dövrü mədəniyyətinin mərkəzi Peru və Boliviya əraziləri (e.ə.6-10-cu əsrlər) hesab edilirlər.

Şimali Qafqazda tunc dövrünə aid Maykop mədəniyyəti təşəkkül tapmışdır (ASE IX cild, Bakı,1986).

Arxeoloq alimlərin ehtimalına görə. SSRİ ərzisində tunc dövrünün özünəməxsus xüsusiyyətləri olmuş, o, müxtəlif qruplar və mədəniyyətlər şəklində şəklində yayılmış, ibtidai icma quruluşunu təmsil etmişdir. Şimali Qafqazda tunc dövrünə aid Maykop mədəniyyəti e.ə.3-2-ci minilliyin əvvəllərində eneolit xüsusiyyətlər daşımış və yalnız oturaq əkinçi-maldar tayfalara məxsus olmuşdur. Bu mədəniyyət öz başlanğıcında eneolit xüsusiyyəti daşımış və yalnız sonrakı mərhələdə tunc alətlərin geniş yayılması ilə səciyyələnmişdir.

Beləliklə e.ə. 2-ci minillikdə Maykop mədəniyyəti əsasında Şimali Qafqazda tunc dövrü mədəniyyəti yaranmışdır. Bu mədəniyyət öz inkişafında 3-cü mərhələdən keçmişdir. Bizim e.ə. 2-ci minilliyin əvvəlləri 1700-cü il bu mədəniyyətin başlanğıcı, e.ə. 1700-1500-ci illər bu mədəniyyətin inkişaf etmiş, e.ə.1500-ci ildən 2-ci minilliyin sonralarına qədər olan dövr isə onun son mərhələsi olmuşdur (ASE).

Tunc dövründə Şimali Qafqaz mədəniyyəti və tuncun istehsalı və işlənməsi əsaslı şəkildə təkmilləşmiş və yüksək səviyyəyə qalxmışdır.

Şimali Qafqaz mədəniyyəti də maldar, əkinçi tayfalara məxsus olmuş və tuncun geniş yayılması ilə nəticələnmişdir (ASE, Bakı-1986, s. 377-378 ).

Bu mədəniyyətə məxsus incə naxışlı baltalar, xəncər və sancaqlar, at bəzəkləri və s. sənətkarlıq baxımından xüsusi ilə fərqlənir. Bu koban (Çobar) əhalisinin yaylaqlarda maldarlıqla, vadilərdə isə əkinçiliklə məşğul

olmuşlar.

Zaqafqaziyada, o cümlədən Azərbaycan ərazisində tunc dövrü eramızdan əvvəl IV minilliyin sonu III minilliyin əvvəllərində başlamışdı. Həmin dövrdə bu ərazidə oturaq əkinçi-maldar tayfalara məxsus ilk tunc dövrünə aid Kür-Araz mədəniyyəti təşəkkül tapmışdır. Azərbaycan ərazisində Kür-Araz mədəniyyətinin əsas abidələri Göytəpə, Yanıqtəpə (Cənubi Azərbaycanda), Gültəpə I, Gültəpə II (Naxçıvan), Mingəçevir (Kür çayı sahilində), Babadərviş (Qazax rayonu), Günəştəpə (Fizuli rayonu), Firuz dairə, Böyükdaş (Qobustan) və s. Qəflə mənələri (Qusar rayonu) və digər yaşayış yerlərindən ibarətdir. Arxeoloji qazıntılar zamanı bu abidələrdən dairəvi və düzbucaqlı formalı bina qalıqları, təsərrüfat qurğuları, tuncun istehsalı üçün əmək alətləri, tunc əşyalar, müxtəlif ölçülü və formalı gil qabları, ocaq yerləri, daşdan oraq dişləri, daşdan ox ucluqları, toppuz başlıqları, taxıl üyütmək üçün dən daşları və s. tapılmışdır. Tunc əşyalar mis ilə mərgümüşün və az miqdarda qurğuşun, qızıl, gümüş, dəmir, nikel və s. kimyəvi elementlərin qarışığından ibarət olmuşdur. (ASE, IX cild, Bakı.1986, səh. 376-377). Tuncun belə tərkibi Zaqafqaziyanın Kür-Araz mədəniyyətinə aid edilən bütün abidələr üçün səciyyəvidir.

Yerli tunc istehsalında və bu regionda metallurgiyanın inkişafında Zaqafqaziyanın mineral xammal ehtiyatı əsas rol oynamışdır.

Ermənistan ərazisində Kür-Araz mədəniyyət abidələri Mükənnəttəpə və s. yerlərdə geniş yayılmışdır.

Kür-Araz mədəniyyəti və 3-cü minillikdə Şimali Qafqazdan tutmuş Suriya və Fələstinədək ərazilərdə yayılmış Cənubi Azərbaycanı və Anadolu əyalətini bütünlüklə əhatə etmişdir. Bu mədəniyyət III minilliyin sonralarınadək davam etmişdir.

E.ə ikinci minillikdə Zaqafqaziya ərazisində, o cümlədən Azərbaycanda tunc dövrünün yeni mərhələsi, orta tunc dövrü başlanmış və bu dövrə məxsus daha yüksək səviyyəli mədəniyyət təşəkkül tapmışdır. Bu mədəniyyət əvvəlki mədəniyyətlərdən yerli əkinçi-maldar tayfaların daha böyük təsərrüfat nailiyyətləri əldə etməsi və yeni təsərrüfat formalarına keçmələri ilə seçilir.

Orta tunc dövründə bol və geniş otlaqları olan dağlıq yerlərin mənimsənilməsi sürətlənmiş, köçəri maldarlığın yaranmasına səbəb olmuş, ayrı-ayrı tayfaların əlində böyük sərvətlərin toplanmasına, tayfa üzvləri arasında əmlak bərabərsizliyinin meydana gəlməsinə gətirib çıxarmışdır.

Zaqafqaziyada orta tunc dövrünün abidələri Qızılvənd, Üzərliktəpə, Kültərə 2, Qaraköpəktəpə (Azərbaycan), Tilaleti (Gürcüstan) və s.-dir.

Zaqafqaziyada, eləcə də Azərbaycanda tunc dövrü e.ə. 2-ci minilliyin sonu 1-ci minilliyin əvvəllərində başa çatmışdır. Azərbaycan ərazisində bu dövrə məxsus abidələr daha çox tədqiq edilmişdir. Bunlardan Xocalıda Xanlar (Göygöl) rayonu ərazisində, Naxçıvan, Mingəçevir və Gədəbəydə, Qazax rayonu ərazisində tədqiq olunmuş kurqanları, qəbir abidələrini və yaşayış yerlərini göstərmək olar. Tunc dövrünün son mərhələsində Azərbaycan ərazisində Xocalı-Gədəbəy mədəniyyəti və Naxçıvan mədəniyyəti təşəkkül tapmış və geniş yayılmışdır.

Ermənistan və Gürcüstan əraziləri də son türk dövr abidələri ilə zəngindir. Orta Asiyada Tunc dövrünün olduqca zəngin və rəngarəng xüsusiyyətləri olmuşdur. Xarəzm və Türkmənistanda da bu dövrə aid bir sıra qiymətli abidələr tədqiq edilmişdir. Bu abidələr e.ə. 3-cu minilliyin sonları, 2-ci minilliyin əvvəllərinə aid olub ki, kiçik çay vadilərində yerləşən qədim yaşayış yerlərindən və qəbirstanlıqlardan ibarətdir. İbtidai süni suvarmaya əsaslanan əkinçilik qədim yerli əhalinin əsas məşğuliyyəti olmuş, dulusçuluq mühüm yer tutmuşdur (ASE, Bakı, 1986, s.377-378).

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Həbibullayev O.H. Kültəpə arxeoloji qazıntılar, Bakı-1958

2. Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri, Bakı-1958

3. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri, Bakı-1959

4. Bünyadov T.Ə. Azərbaycanın arxeologiyası oçerkləri, Bakı-1960

5. Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti, Bakı-1977

6. Muradova F.M. Qobustan tunc dövründə, Bakı-1979

7. İsmayılov Q.S. Quruçay və Kəndələnçay vadisində qədim mədəniyyət izləri, Bakı-1981

8. Hüseynov M.M., İsmayılov Q.S., Quliyev H.M. Azərbaycanın arxeoloji abidələri (qədim daş dövrü – orta əsrlər) Bakı-1981

9. Абдуллайев О.Х. Энолит и бронза на территории Нахичеванской АССР, Баку 1982